AZƏRBAYCAN

17 avqust 2024-cü il



# Ali Məclisin növbədənkənar sessiyası başa çatıb



Avqustun 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyası başa çatıb.

Ali Məclisin Mətbuat xidmətindən verilən məlumata görə, iclasın gündəliyinə "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının qanun layihələri daxil edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini Anar İbrahimov gündəlikdə duran birinci məsələ ilə bağlı qeyd edib ki, qanun layihəsi 14 avqust 2024-cü il tarixdə birinci oxunuşda müzakirə olunub, söylənilmiş təklif nəzərə alınmaqla birinci oxunuşda qəbul edilib. Layihənin birinci oxunuşunda verilmiş təklifə İqtisadi siyasət komitəsi tərəfindən baxılıb, müzakirənin nəticəsi olaraq layihənin yenilənmiş variantda sonrakı oxunuşlar üçün Ali Məclisin iclasına təqdim olunması qərara alınıb.

Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev qanun layihəsinin müzakirəsi ilə əlaqədar məlumat verərək təmsil etdiyi komitənin rəyini diqqətə çatdırıb. "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanunu səsə qoyularaq qəbul edilib.

Gündəlikdə duran növbəti məsələ - "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi də səsə qoyularaq qəbul olunub.

Sonda Anar İbrahimov iclas iştirakçılarına gələcək fəaliyyətlərində uğurlar arzulayaraq bildirib ki, Ali Məclisdə çalışmaq qürurvericidir, çünki bu məclisdə Ulu Öndər Heydər Əliyev müasir müstəqil Azərbaycanın təməl daşlarını atıb.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyası öz işini başa çatdırıb.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***